2 səh.

**Azərbaycan idmançıları yeni tarix yazdılar**

3 səh.

**"Tərəqqi" medallı fədai oğlu**

5 səh.

**Xoş gördük, "Mühacir"!**

5 səh.

**Amerikana proqramı Ellis adası və ABŞ-a gələn ilk azərbaycanlını araşdırır**




# MÜHACİR



"İranlı Mühacirlər Cəmiyyəti" İctimai Birliyinin mətbu nəşri

№ 01 (95) 3 sentyabr 2016-cı il

ایرانلی مهاجرلر جمعیتی اجتماعی بیرلیینین مطبو نشری


*Oxucularımıza*

## "Mühacir" yeni imtahan ərəfəsində

Əziz oxucular, "Mühacir" qəzeti yenidən görüşünüzə gəlir. Fasilə çox çəkdi. Obyektiv və subyektiv səbəblərdən nəşrinə 19 il ara verməli olduq.

Etiraf edək ki, bu nəşrin birinci dövrədə işıq üzü görən saylarının ərsəyə gətirilməsində redaksiya kollektivi sözün əsl mənasında jurnalist həyatının məziyyətlərini yaşadı. Gümanınıza gəlməsin ki, əməkdaşlardan kimsə təzyiqlərlə qarşılaşdı. Dünyada demokratik dəyərlərə sayğılı münasibətinə görə qazandığı imiclə tanınan Azərbaycan Respublikasında təsbit olunan söz və mətbuat azadlığından maneəsiz faydalandıq. İndi də yeni, uzun yola çıxmaq niyyətimiz məhz həmin dəyərlərin mövcudluğundan qaynaqlanır.

Səmimi etiraf etməliyik ki, işimiz heç də asan olmayacaq. Bizdən əvvəl "Mühacir"in sükanı arxasında dayananların əksəriyyəti haqq dünyasına kamil yazıçı, publisist, şair, tənqidçi, icmalçı kimi qovuşublar. Yəni sıralarında 3 Sosialist Əməyi Qəhrəmanını, 3 xalq şairini, 20 Yanvar hərəkatı və Qarabağ müharibəsi qəhrəmanlarını, minlərlə elmli, təhsillini, orden və medallını birləşdirən İranlı Mühacirlər Cəmiyyəti və onun üzvləri qarşısında imtahandan şərəflə çıxıblar.

Estafet çələngi indi bizlərdədir. Doğrudur, çətinliklə üzləşəndə ilk növbədə qəzetin arxivimizdə səliqə ilə saxlanılan saylarına üz tutacağıq. Aradan illər keçməsinə baxmayaraq bir çox mövzular aktuallığını saxlamaqdadır.

**Xoş gördük, əziz oxucular!**

## Bu dəyişiklik vətəndaşlıqdan məhrumetmə ilə bağlı çaşqınlığı aradan götürəcək

**Konstitusiyaya vətəndaşlığa xitam verilməsi ilə bağlı təklif edilən dəyişikliklər özündə heç bir yeni əsaslar və hüquqi çərçivə daşımır, tam tərsinə, bu istiqamətdə tamlığı təmin edəcək və çaşqınlığı aradan götürəcəkdir.**

Konstitusiyanın vətəndaşlıq hüququnun təminatı ilə bağlı 53-cü maddəsinə təklif edilən dəyişiklikdə müəyyən edilir ki, Azərbaycan Respublikası vətəndaşlığından məhrum edilmə ilə bağlı yer alan "heç bir halda" tələbi Konstitusiyadan çıxarılsın və qanunla müəyyən edilmiş itirilmə halları istisna kimi əlavə edilsin:

"Konstitusiyanın mətnində mövcud "heç bir halda" ifadəsi müxtəlif vaxtlarda xüsusilə "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanuna edilən əlavə və dəyişikliklər zamanı müzakirələrə səbəb olub və bəzi hallarda ictimaiyyətdə çaşqınlıq yaradıb. Buna səbəb qanunvericiliyimizdə yer alan vətəndaşlıqdan məhrumetmə və itirilmə anlayışları arasındakı fərqə diqqət yetirilməməsi və ya qismən bununla bağlı qeyri-müəyyənliklə bağlı olub. Belə ki, "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanunda artıq "Vətəndaşsızlığın ixtisar edilməsi haqqında" 1961-ci il 30 avqust tarixli Konvensiyanın müddəaları nəzərə alınmaqla vətəndaşlığın itirilməsi üçün əsaslar müəyyən edilib. Nümunə üçün, Qanuna əsasən, Azərbaycan vətəndaşının digər ölkənin vətəndaşlığını könüllü əldə edilməsi və ya xarici dövlətin silahlı qüvvələrində və ya digər silahlı birləşmələrində könüllü xidmət etmək belə hallar üçün əsas hesab edilir. Bu halda vətəndaşlığın itirilməsi Qanunda müəyyən edilmiş şərtlər nəzərə alınmaqla məhkəmə tərəfindən həll edilir".

Qeyd edək ki, sentyabrın 26-da Azərbaycanda ölkə Konstitusiyasına dəyişikliklər edilməsi ilə bağlı ümumxalq səsverməsi keçiriləcək.

## Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Milli Olimpiya Komitəsinin Prezidenti Cənab İlham Əliyevə



**Möhtərəm Cənab Prezident,**

Bu günlər bütün respublika sakinləri kimi sıralarında minləri birləşdirən "İranlı Mühacirlər Cəmiyyəti" İctimai Birliyinin üzvləri də idmançılarımızın XXXI Yay Olimpiya Oyunlarında qazandıqları möhtəşəm uğurların yaratdığı sevincin təsiri altında yaşayır, təbriklərini və xoş duyğularını Sizə - Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Milli Olimpiya Komitəsinin rəhbərinə yetirməkdən məmnunluq duyurlar.

Təşkilatımız hələ 8 iyun 2015-ci ildə, I Avropa Oyunları ərəfəsində Sizə ünvanladığı məktubda belə bir mötəbər kütləvi yarışların keçirilməsinin ölkəmizə etibar edilməsinin Azərbaycanın, onun Prezidentinin yüksək beynəlxalq nüfuzundan, malik olduğumuz potensialdan irəli gəldiyini vurğulamışdı. Nikbinliklə qeyd etmişdik ki, qələbələrlə yadda qalacaq Avropa Oyunları belə səviyyəli yarışlar keçirmək istəyən digər dövlətlərə gör-götür məktəbi olacaq, ən başlıcası qarşıdakı Rio-de Janeyro Olimpiadasında uğurların davamı üçün baş məşq kimi yadda qalacaqdır.

Proqnozlarımızın özünü doğrultmasından qürur duyuruq. Əslində belə qənaətə gəlməyimiz məntqi əsaslardan qaynaqlanırdı. 1996-cı ilin Atlanta Yay Olimpiadasında 23 təmsilçimizin cəmi bir medal qazanması ciddi həyacan təbilinin səsləndirilməsinə səbəb olmuşdu. İctimai tələb bu idi ki, dönüş yaradılması üçün ölkənin olimpia hərəkatında köklü islahatlar aparılmalıdır.

İndi 20 ilə yaxındır ki, Milli Olimpia Komitəsinin Prezidentisiniz. Azərbaycanın bütün şəhər və bölgələri özlərinin olimpiya komplekslərinə malikdirlər. Hər il mötəbər yarışlarda yüzlərlə medal əldə olunur. Ən başlıcası isə olimpiadalardakı nailiyyətlərin yüksələn xətlə inkişafı tendensiya kimi özünü təsdiqləyib.

Sidneydə 3, Afinada 5, Pekində 8, Londonda 10. Rio-de Janeyroda Azərbaycan bayrağının 18 dəfə təltif mərasimlərində dalğalanması, belə desək hər üç təmsilçimizdən birinin mükafatlandırılması müqaisəyə gəlməz nailiyyətdir. Azərbaycan 1 qızıl, 7 gümüş, 10 bürünc medalla təltifin kefiyyəti baxımından 207 ölkə arasında 39-cudur. Lakin medallarının sayına gəldikdə dünyada 15-ci, MDB məkanında 2-ci, Avropada 7-ci, islam ölkələrin arasında isə birincidir.

**Möhtərəm Cənab Prezident,** biz müqayisənin sonuncu hissəsində xüsusi dayanmaq istəyirik. Nəzərə alsaq ki, Azərbaycan 2017-ci ildə daha bir möhtəşəm idman sınağından çıxmalı, IV İslam Həmrəylik Oyunlarına ev sahibliyi etməlidir, olimpiadadakı nəticələr stimullaşdırma, sabaha daha nikbin yanaşma baxımından müstəsna əhəmiyyətə malikdir. Biz inanırıq ki, I Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri kimi məsuliyyətli vəzifənin öhdəsindən layiqincə gələn Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti, millət vəkili Mehriban Əliyevanın rəhbəri olduğu qurum bu yarışların da yüksək səviyyədə keçirilməsini təmin edəcəkdir.

"İranlı Mühacirlər Cəmiyyəti" İctimai Birliyinin üzvləri yeni, daha möhtəşəm uğurların qazanılacağına həm də ona görə əmindir ki, Azərbaycanda idmana, insanların sağlamlığının qorunmasına diqqət və qayğı dövlət siyasətinin əsas istiqamətlərindəndir.

Sizi bir daha təbrik edir, hərtərəfli yorulmaz, səmərəli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq!

Səmimi hörmətlə,

***"İranlı Mühacirlər Cəmiyyəti" İctimai Birliyi***



→ 2

**47 il əvvəlin xatirəsi, yaxud yerin yiyəsi gəlməsəydi...**



→ 3

**Ən çox hansı ölkəyə mühacirət edilir?**




→ 4

**Fransada deportasiyadan qorxan mühacir pasportunu yedi**

**Seyid Cəfər Pişəvəridən Xatirələr**

→ 6





→ 5

**Hər gün Almaniyadan Avstriyaya yüzlərlə mühacir qovulur**